# Dövlət qulluğu sınaq imtahanı №1



Sual **1**
Cavablandırılmayıb
0 - 1
İşarə

"Müxtəlif şirkətlərin ölkəmizdə ***distribüterləri*** vardır" cümləsində fərqləndirilmiş sözün aid olduğu məna qrupunu müəyyən edin.

Cavablardan birini seçin:

A. arxaizm

B. çoxmənalı söz

C. antonim

D. omonim

E. neologizm

Sual **2**
Cavablandırılmayıb
0 - 1
İşarə

Eyniköklü ***olmayan*** sözləri müəyyən edin.

Cavablardan birini seçin:

A. kitabdan, kitabım, kitablar

B. güllü, gülsüz, gülüstan

C. gülüş, gülünc, güldür (mək)

D. qarlı, qarsız, qardakı

E. kitabxana, kitabça, kitabxanaçı

Sual **3**
Cavablandırılmayıb
0 - 1
İşarə

Sadə sifətləri müəyyən edin.

Cavablardan birini seçin:

A. sınıq, xarici, badamı

B. böyük, tibbi, kütləvi

C. qaraşın, qupquru, bikef

D. yumşaq, bədii, mədəni

E. soyuq, elmi, sıravi

Download: http://Yusif.Az

Sual **4**
Cavablandırılmayıb
0 - 1
İşarə

Feili sifətin işləndiyi cümləni müəyyən edin.

Cavablardan birini seçin:

- A. Dalaşan uşaqları danladılar.
- B. Bu barədə düşünə-düşünə otaqdan çıxdım.
- C. Müəllim çalışqan şagirdləri təriflədi.
- D. Uşaqlar gülümsəyərək qocanın yanına qaçdılar.
- E. Onun çox titrək səsi var.

Sual **5**
Cavablandırılmayıb
0 - 1
İşarə

Qoşmanın işləndiyi cümləni müəyyən edin.

Cavablardan birini seçin:

- A. Doğru sözə zaval yoxdur.
- B. O, kəndə doğru gedirdi.
- C. Qatar sürətlə gedirdi.
- D. Lalə başqa işlərdən xəbərsiz idi.
- E. Qabillə Vüqar yarışda birinci oldular.

Sual **6**
Cavablandırılmayıb
0 - 1
İşarə

Feili sifət tərkibini müəyyən edin.

Cavablardan birini seçin:

- A. bizim haqqımızda düşünən
- B. vətənin keşiyində
- C. vətən uğrunda çalışmaq
- D. qaçan idmançı
- E. oyun havası

Sual **7**
Cavablandırılmayıb
0 - 1
İşarə

Xitab haqqındakı fikirlərdən biri düzgün ***deyil***.

Cavablardan birini seçin:

- A. Cümlədə işlənmə yeri müstəqildir.
- B. Cümlənin sonunda işləndikdə özündən əvvəl vergül qoyulur.
- C. İsmin müxtəlif hallarında olan sözlərlə ifadə olunur.
- D. Xitablarla həm canlı, həm də cansız varlıqlara müraciət etmək olar.
- E. Heç bir cümlə üzvü ilə sintaktik əlaqəyə girmir.

Download: http://Yusif.Az

Sual **8**

Cavablandırılmayıb

0 - 1

İşarə

Dil haqqındakı fikirlərdən biri düzgün ***deyil***:

Cavablardan birini seçin:

- A. Dil insan cəmiyyətində meydana gəldiyi üçün ictimai hadisə sayılır.
- B. Cəmiyyət olmadan dil formalaşa bilməz.
- C. Dil təfəkkürlə sıx bağlıdır.
- D. Dilin yaranması üçün insan orqanizminin fizioloji cəhətdən formalaşması da vacib şərtlərdəndir.
- E. Dil və şüurun yaranması bir-biri ilə əlaqəsi olmayan müxtəlif ictimai proseslərdir.

Sual **9**

Cavablandırılmayıb

0 - 1

İşarə

"Topoqrafiya" sözündə vurğu neçənci hecaya düşür?

Cavablardan birini seçin:

- A. 1-ci
- B. 5-ci
- C. 4-cü
- D. 3-cü
- E. 2-ci

Sual **10**

Cavablandırılmayıb

0 - 1

İşarə

Yalnız mənsubiyyət şəkilçisi artırılarkən ikinci hecasındakı saiti düşən sözləri müəyyən edin.

Cavablardan birini seçin:

- A. burun, alın, fikir, cisim
- B. ağız, burun, oğul, beyin
- C. qisim, alın, qoyun, səbir
- D. boyun, abır, isim, sətir
- E. çiyin, fəsil, xeyir, qədir

Sual **11**

Cavablandırılmayıb

0 - 1

İşarə

"*Ancaq Mehdi yenə də deyilənləri bir qulağından alıb, o biri qulağından ötürürdü*" (B.Talıblı) cümləsinin xəbəri nə ilə ifadə olunmuşdur?

Cavablardan birini seçin:

- A. məsdər tərkibi ilə
- B. sinonimlə
- C. III növ ismi birləşmə ilə
- D. feili sifət tərkibi ilə
- E. frazeoloji birləşmə ilə

Download: http://Yusif.Az

Sual 12
Cavablandırılmayıb
0 - 1
İşarə

Hansı əməli yazı növü aşağıdakı hissələrdən ibarət olur?
1. müraciət hissəsi
2. ümumi hissə
3. fərqləndirici hissə
4. yekunlaşdırıcı hissə

Cavablardan birini seçin:

- A. arayış
- B. vəkalətnamə
- C. məktub
- D. bildiriş
- E. protokol

Sual 13
Cavablandırılmayıb
0 - 2
İşarə

Yazılışı və tələffüzü ***fərqlənməyən*** sözləri müəyyən edin.

Cavablardan birini və ya bir neçəsini seçin:

- 1. qəyyum
- 2. iaşə
- 3. raund
- 4. xasiyyət
- 5. xaos
- 6. təbii

Sual 14
Cavablandırılmayıb
0 - 2
İşarə

Ədəbi dil üçün səciyyəvidir:

Cavablardan birini və ya bir neçəsini seçin:

- 1. loru sözlər
- 2. alınma sözlər
- 3. dialekt və şivələr
- 4. ümumişlək sözlər

Download: http://Yusif.Az

Sual 15
Cavablandırılmayıb
0 - 2
İşarə

Durğu işarələrinin doğru işləndiyi cümlələri müəyyən edin.

Cavablardan birini və ya bir neçəsini seçin:

- 1. "Qarayazı" qoruğunun meşələri heyvanlar aləminin zənginliyi cəhətdən xüsusilə fərqlənir.
- 2. Xanım, mən sənə demədim ki, bu dərvişin əlindən heç zad qurtarmaz?
- 3. Göy üzünün möcüzəli rəngləri, mavi, qara, çəhrayı onun gözündə əks olunurdu.
- 4. Əlbəttə, o, işlərinin çoxluğuna görə şikayət etmirdi, amma narahatlığı üzündən bilinirdi.
- 5. Axı sən mənim oğlumsan Gülsüm ki, qızım deyil.

Sual 16
Cavablandırılmayıb
0 - 1
İşarə

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən aşağıdakı məsələlər üzrə referendum keçirilə bilməz:
1. Baş Nazirin seçilməsi
2. Azərbaycan Respublikasının dövlət sərhədlərinin dəyişdirilməsi
3. senzuranın tətbiq edilməsi
4. Azərbaycan Respublikasının adının dəyişdirilməsi
5. dövlət büdcəsi
6. Azərbaycan Respublikasının inzibati quruluşunun dəyişdirilməsi
7. əfvetmə

Cavablardan birini seçin:

- A. 2, 5, 7
- B. 1, 3, 4
- C. 1, 4, 6
- D. 1, 5, 7

Sual 17
Cavablandırılmayıb
0 - 1
İşarə

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Azərbaycan Respublikası siyasi sığınacaq verir:

Cavablardan birini seçin:

- A. əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə
- B. başqa dövlətlərin ərazisində daimi yaşayan vətəndaşlarına
- C. siyasi əqidəsinə görə təqib olunan hər bir şəxsə
- D. başqa dövlətlərin ərazisində müvəqqəti yaşayan vətəndaşlarına

Sual 18
Cavablandırılmayıb
0 - 1
İşarə

Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilmiş vəzifələrə aiddir:

Cavablardan birini seçin:

- A. Cəmiyyətin və dövlətin siyasi həyatında iştirak
- B. Dövlət dilindən istifadə
- C. Birləşmək
- D. Vətəni müdafiə

Download: http://Yusif.Az

Sual 19
Cavablandırılmayıb
0 - 1
İşarə

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Azərbaycan Respublikasında əfv etmək səlahiyyətinə malikdir:

Cavablardan birini seçin:
- A. Azərbaycan Respublikasının Prezidenti
- B. Azərbaycan Respublikasının Milli Məclisi
- C. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi
- D. Milli Məclisin razılığı ilə Azərbaycan Respublikasının Prezidenti

Sual 20
Cavablandırılmayıb
0 - 1
İşarə

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərin vəzifədən kənarlaşdırılması haqqında rəyi təqdim etməlidir:

Cavablardan birini seçin:
- A. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə
- B. Azərbaycan Respublikasının Prezidentinə
- C. Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurasına
- D. Azərbaycan Respublikasının Milli Məclisinə

Sual 21
Cavablandırılmayıb
0 - 1
İşarə

Azərbaycan Respublikası Konstitusiyasında dəyişikliklərin təklif edilməsi təşəbbüsünün məhdudlaşdırılması ilə bağlı təsbit edilmiş müddəaya uyğun ***deyil***:

Cavablardan birini seçin:
- A. Azərbaycan Respublikası Konstitusiyasının dövlət rəmzlərinə dair müddəalar dəyişikliklər edilməsi haqqında təkliflər referenduma çıxarıla bilməz.
- B. Azərbaycan Respublikası Konstitusiyasının 3-cü fəslində nəzərdə tutulmuş insan və vətəndaş hüquqları və azadlıqlarının ləğvi və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulduğundan daha artıq dərəcədə məhdudlaşdırılması haqqında təkliflər referenduma çıxarıla bilməz.
- C. Azərbaycan Respublikası Konstitusiyasının 1-ci, 2-ci, 6-cı, 7-ci, 8-ci və 21-ci maddələrinin ləğv edilməsi haqqında təkliflər referenduma çıxarıla bilməz.
- D. Azərbaycan Respublikası Konstitusiyasının 1-ci, 2-ci, 6-cı, 7-ci, 8-ci və 21-ci maddələrində dəyişikliklər edilməsi haqqında təkliflər referenduma çıxarıla bilməz.

Sual 22
Cavablandırılmayıb
0 - 1
İşarə

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən kimlər dövlət qulluğu vəzifəsinə qəbul edilərkən and ***içmirlər***?

Cavablardan birini seçin:
- A. inzibati vəzifələrin altıncı təsnifatı üzrə dövlət qulluğuna qəbul edilənlər
- B. inzibati vəzifələrin beşinci təsnifatı üzrə dövlət qulluğuna qəbul edilənlər
- C. inzibati vəzifələrin dördüncü təsnifatı üzrə dövlət qulluğuna qəbul edilənlər
- D. yardımçı dövlət qulluğu vəzifəsinə qəbul edilənlər

Download: http://Yusif.Az

Sual 23
Cavablandırılmayıb
0 - 1
İşarə

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qulluğuna qəbulla bağlı düzgün ***deyil***:

Cavablardan birini seçin:

- A. Müsabiqədən müvəffəqiyyətlə keçmiş namizədlər vakant dövlət qulluğu vəzifəsinə təyin edilmək üçün 5 iş günü müddətində dövlət orqanının rəhbərinə təqdim olunurlar.
- B. Müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum test imtahanından keçən şəxsə inzibati və yardımçı vəzifələrin təsnifat toplusuna uyğun olaraq inzibati vəzifə üzrə test imtahanından keçdiyini təsdiq edən sertifikat verir.
- C. Müsahibəni dövlət qulluğu vəzifəsinin aid olduğu dövlət orqanı təşkil edir.
- D. Müsahibə sənədlərin qəbulu başa çatdıqdan sonra 20 gün ərzində keçirilir.

Sual 24
Cavablandırılmayıb
0 - 1
İşarə

"İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"na əsasən göstərilənlərdən hansı inzibati vəzifə hesab edilir?

Cavablardan birini seçin:

- A. ikinci məsləhətçi
- B. məsləhətçi
- C. məsləhətçi-müşavir
- D. birinci məsləhətçi

Sual 25
Cavablandırılmayıb
0 - 1
İşarə

"Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qulluqçusu barədə hansı hallarda intizam icraatına başlanıla ***bilməz***?

Cavablardan birini seçin:

- A. kütləvi informasiya vasitələrində dövlət qulluqçusu tərəfindən maraqların toqquşmasına yol verilməsi barədə məlumat dərc edildikdə
- B. Qanunun müddəalarının vətəndaş tərəfindən pozulması barədə fiziki şəxslər tərəfindən şikayət və ya digər məlumat verildikdə
- C. Qanunun müddəalarının dövlət qulluqçusu tərəfindən pozulması barədə hüquqi şəxslər tərəfindən şikayət verildikdə
- D. Qanunun müddəalarının dövlət qulluqçusu tərəfindən pozulması barədə dövlət orqanına fiziki şəxs tərəfindən məlumat verildikdə

Sual 26
Cavablandırılmayıb
0 - 1
İşarə

"İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununa əsasən informasiya sorğusunun icra müddətinin uzadılması barədə məlumat verilməlidir:

Cavablardan birini seçin:

- A. sorğuçu tərəfindən Nəzarət orqanına 7 gün ərzində
- B. sorğuçu tərəfindən informasiya sahibinin yuxarı təşkilatına 5 iş günü ərzində
- C. informasiya sahibi tərəfindən sorğuçuya 7 iş günü ərzində
- D. informasiya sahibi tərəfindən sorğuçuya 5 iş günü ərzində

Download: http://Yusif.Az

Sual 27
Cavablandırılmayıb
0 - 1
İşarə

"İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununa əsasən informasiyanın xidməti istifadə üçün nəzərdə tutulmuş hesab edilməsi qaydası necə müəyyən edilir?

Cavablardan birini seçin:

- A. xidməti istifadə üçün nəzərdə tutulan sənədlərin və (və ya) onların saxlandığı qovluğun üzərində "məxfi" qeydi yazılmaqla
- B. xidməti istifadə üçün nəzərdə tutulan sənədlərin və (və ya) onların saxlandığı qovluğun üzərinə "Xidməti istifadə üçün" qeydi yazılmaqla
- C. xidməti istifadə üçün nəzərdə tutulan sənədlərin və (və ya) onların saxlandığı qovluğun üzərində "gizli (konfidensial)" qeydi yazılmaqla
- D. xidməti istifadə üçün nəzərdə tutulan sənədlərin və (və ya) onların saxlandığı qovluğun üzərinə "məxfi (konfidensial)" qeydi yazılmaqla

Sual 28
Cavablandırılmayıb
0 - 1
İşarə

"Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət sirri təşkil edən məlumat daşıyıcılarına verilən rekvizitlərdə ***göstərilmir***.

Cavablardan birini seçin:

- A. daşıyıcını məxfiləşdirən dövlət hakimiyyəti orqanı, müəssisə, idarə, təşkilatın adı
- B. məlumatın məxfiləşdirilmə tarixi və şəraiti
- C. məlumatın qeydiyyat nömrəsi və məlumatların məxfiliyinin açılması tarixi və ya şərti, yaxud buna səbəb ola biləcək hadisə
- D. müvafiq dövlət hakimiyyəti orqanında, müəssisə, idarə və ya təşkilatda qüvvədə olan məxfiləşdirilməli məlumatlar siyahısının müvafiq bəndinə istinadla, daşıyıcıdakı məlumatların məxfilik dərəcəsi

Sual 29
Cavablandırılmayıb
0 - 1
İşarə

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa əsasən satınalma müqaviləsinin qüvvəyə minməsi və bu haqda məlumatın ictimaiyyətə çatdırılması ilə bağlı doğrudur:
1. Tender nəticəsində bağlanmış satınalma müqaviləsi barədə məlumat dərhal tender haqqında elanın verildiyi mətbuat orqanında dərc etdirilir və rəsmi internet saytında yerləşdirilir.
2. Tender nəticəsində bağlanmış satınalma müqaviləsi barədə məlumat 5 bank günü ərzində tender haqqında elanın verildiyi mətbuat orqanında dərc etdirilir və rəsmi internet saytında yerləşdirilir.
3. Tender prosedurlarının tətbiqi zamanı tender təklifinin aksepti və satınalma müqaviləsinin qüvvəyə minməsi satınalma müqaviləsinə uyğun həyata keçirilir.
4. Tender prosedurlarının tətbiqi zamanı tender təklifinin aksepti və satınalma müqaviləsinin qüvvəyə minməsi "Dövlət satınalmaları haqqında" AR Qanununa uyğun həyata keçirilir.
5. Satınalmaların bütün digər metodlarının tətbiqi zamanı malgöndərənlərə (podratçılara) satınalma müqaviləsinin qüvvəyə minmə qaydaları haqqında məlumat satınalan təşkilat tərəfindən təkliflərə, ofertalara və ya kotirovkalara dair sorğunun alındığı vaxt verilir

Cavablardan birini seçin:

- A. 1, 3, 5
- B. 1, 2, 3
- C. 2, 3, 4
- D. 2, 4, 5

Download: http://Yusif.Az

Sual 30
Cavablandırılmayıb
0 - 1
İşarə

Azərbaycan Respublikasının "Büdcə sistemi haqqında" qanuna görə dövlət büdcəsinin məqsədi nədən ibarətdir?

Cavablardan birini seçin:

A. Azərbaycan Respublikası dövlət büdcəsinin məqsədi ölkənin iqtisadi, sosial və digər strateji proqramlarının və problemlərinin həlli, dövlətin funksiyalarının həyata keçirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə vasitəsinin müəyyən edilməsi, toplanılması və istifadəsini təmin etməkdir

B. Azərbaycan Respublikası dövlət büdcəsinin məqsədi ölkənin iqtisadi, sosial və digər strateji proqramlarının və problemlərinin həlli, dövlətin funksiyalarının həyata keçirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə vəsaitinin toplanmasını və istifadəsini təmin etməkdir

C. Azərbaycan Respublikası dövlət büdcəsinin məqsədi ölkənin iqtisadi, sosial, siyasi və digər strateji proqramlarının və problemlərinin həlli, dövlətin məqsəd və vəzifələrinin icra edilməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə vəsaitinin formalaşdırılmasını və istifadəsini təmin etməkdir

D. Azərbaycan Respublikası dövlət büdcəsinin məqsədi ölkənin iqtisadi, sosial, siyasi və digər strateji proqramlarının və problemlərinin həlli, dövlətin məqsəd və vəzifələrinin icra edilməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə vasitəsinin müəyyən edilməsi, toplanılması və istifadəsini təmin etməkdir

Sual 31
Cavablandırılmayıb
0 - 1
İşarə

Azərbaycan Respublikasının Mülki Məcəllesinə əsasən uyğunluğu müəyyən edin
1. Qəyyumluğun təyin edildiyi hallar
2. Himayəçiliyin təyin edildiyi hallar
a. Fiziki şəxsin on dörd yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayan olması
b. Fiziki şəxsin spirtli içkilərdən, narkotik vasitələrdən və ya psixotrop maddələrdən sui-istifadə etməsi və ya qumara qurşanması nəticəsində öz ailəsini ağır maddi vəziyyətə salması ilə fəaliyyət qabiliyyətinin məhkəmə tərəfindən məhdudlaşdırılmış olması
c. Fiziki şəxsin on dörd yaşınadək olan yetkinlik yaşına çatmayan olması
d. Fiziki şəxsin psixi pozuntuya görə məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayılması

Cavablardan birini seçin:

A. 1 – a, d; 2 – b, c

B. 1 – a, b; 2 – c, d

C. 1 – c, b; 2 – a, d

D. 1 – c, d; 2 – a, b

Sual 32
Cavablandırılmayıb
0 - 1
İşarə

Azərbaycan Respublikasının "Əmək Məcəlləsi"nə əsasən əmək müqaviləsinin ləğv olunması qadağan edilən işçilərə aid ***deyil***:

Cavablardan birini seçin:

A. şəkərli diabetli və ya dağınıq sklerozlu xəstələr

B. üç yaşınadək uşağını təkbaşına böyüdən kişilər

C. həmin müəssisədə əmək şikəstliyi almış və ya peşə xəstəliyinə tutulmuşlar

D. yeganə qazanc yeri işlədiyi müəssisə olub məktəb yaşınadək uşağını təkbaşına böyüdən işçilər

Download: http://Yusif.Az

Sual 33
Cavablandırılmayıb
0 - 1
İşarə

“Azərbaycan Respublikasının Əmək Məcəlləsi”nə əsasən Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda xəsarət alan işçilərə neçə gün məzuniyyət verilir?

Cavablardan birini seçin:

- A. 42 təqvim günündən az olmayaraq
- B. 45 təqvim günündən az olmayaraq
- C. 46 təqvim günündən az olmayaraq
- D. 40 təqvim günündən az olmayaraq

Sual 34
Cavablandırılmayıb
0 - 1
İşarə

“Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat”a əsasən sənəd rəsmiləşdirilir:

Cavablardan birini seçin:

- A. sənədin müəyyən edilmiş qaydada uçota alınması yolu ilə
- B. sənədin dərc edilməsi vasitəsi ilə
- C. sənədin razılaşdırılması yolu ilə
- D. sənədin imzalanması, təsdiq edilməsi, qeydə alınması və ona möhür vurulması vasitəsi ilə

Sual 35
Cavablandırılmayıb
0 - 1
İşarə

“Dövlət bayrağının istifadəsi qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən Azərbaycan Respublikasının Dövlət bayrağının daimi yerləşdirilməli olduğu yerlərə aid ***deyil***:

Cavablardan birini seçin:

- A. Azərbaycan Respublikası yerli icra hakimiyyəti başçılarının iş otaqları
- B. Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqlarının başçılarının iş otaqları
- C. Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin iş otaqlar
- D. Azərbaycan Respublikası məhkəmələrinin iclas salonları

Sual 36
Cavablandırılmayıb
0 - 1
İşarə

Azərbaycan Respublikasının Konstitusiyasında nikah hüququ ilə bağlı təsbit olunmuş müddəalara uyğundur:

Cavablardan birini seçin:

- A. Uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək valideynlərin həm hüququ, həm də borcudur.
- B. Valideynlərin istəyinə uyğun tərbiyə almaq və qayğı görmək uşaqların həm hüququ, həm də borcudur.
- C. Uşaqlara qayğı göstərmək valideynlərin hüququ, onları tərbiyə etmək isə borcudur.
- D. Uşaqlara qayğı göstərmək valideynlərin borcudur, onları istədikləri kimi tərbiyə etmək valideynlərin hüququdur.

Download: http://Yusif.Az

Sual 37
Cavablandırılmayıb
0 - 1
İşarə

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Milli Məclis hansı məsələyə dair ümumi qaydalar müəyyən edərkən 63 səs çoxluğu ilə qanunlar qəbul ***etmir***?

Cavablardan birini seçin:

- A. dövlət qulluğu
- B. vergilər, rüsumlar və ödənişlər
- C. Azərbaycan Respublikası Prezidentinin seçkiləri
- D. nümayəndəlik və vərəsəlik

Sual 38
Cavablandırılmayıb
0 - 1
İşarə

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının qanuna əsasən, dövlət qulluğunun əsas vəzifələri qismində göstərilə ***bilməz***:

Cavablardan birini seçin:

- A. dövlət orqanının rəhbərlərin öz səlahiyyəti hüdudunda verdikləri əmrlərin, sərəncamların və göstərişlərin qanunvericilik aktlarına uyğun yerinə yetirilməsi;
- B. dövlət orqanlarının səmərəli fəaliyyətinin və dövlət qulluqçuları tərəfindən vəzifə səlahiyyətlərinin yerinə yetirilməsinin təmin edilməsi;
- C. Azərbaycan Respublikasının Konstitusiyası və digər qanunvericilik aktları əsasında vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi;
- D. dövlət orqanlarının səlahiyyəti hüdudlarında qərarların hazırlanması və qəbul edilməsi;

Sual 39
Cavablandırılmayıb
0 - 1
İşarə

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən "*dövlət qulluğu vəzifəsi*" anlayışı düzgün verilmişdir:

Cavablardan birini seçin:

- A. dövlət orqanının normativ aktları ilə müəyyən edilən struktur quruluşu və ştat cədvəlinə uyğun olan ştat vahidi
- B. dövlət mülkiyyətində olan təşkilatın normativ aktlarla müəyyən edilən struktur quruluşu və ştat cədvəlinə uyğun olan ştat vahidi
- C. dövlət təşkilatının normativ aktlarla müəyyən edilən struktur quruluşu
- D. dövlət mülkiyyətində olan qurumlarda daimi və ya müvəqqəti təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat vəzifələri

Sual 40
Cavablandırılmayıb
0 - 1
İşarə

"Dövlət orqanlarında dövlət qulluqçusuna dövlət qulluğunda qulluq stajına görə əlavə haqqın məbləğlərinin müəyyənləşdirilməsi Qaydaları"na əsasən düzgün ***deyil***:

Cavablardan birini seçin:

- A. Dövlət qulluqçularına qulluq stajına görə aylıq vəzifə maaşına müəyyən edilmiş əlavələrin ödənilməsi məqsədi ilə hər il növbəti il üçün təsdiq olunan dövlət büdcəsində bu orqanlarda dövlət qulluqçuları üçün müəyyən olunmuş aylıq əmək haqqı fondunun (vəzifə maaşına əlavələr istisna olunmaqla) 2 misli həcmində əlavə vəsaitlər nəzərdə tutulur.
- B. Dövlət qulluqçusuna dövlət qulluğunda qulluq stajına görə əlavə haqq aylıq dövlət məvacibinə nisbətən faizlə müəyyən edilir və hər ay ödənilir.
- C. "Dövlət orqanlarında dövlət qulluqçusuna dövlət qulluğunda qulluq stajına görə əlavə haqqın məbləğlərinin müəyyənləşdirilməsi Qaydaları" "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən hazırlanmışdır.
- D. Dövlət qulluqçusuna dövlət qulluğunda qulluq stajına görə əlavə haqq qulluq keçdiyi dövlət orqanı üçün dövlət büdcəsində nəzərdə tutulmuş əmək haqqı fondu hesabına verilir.

Download: http://Yusif.Az

Sual 41
Cavablandırılmayıb
0 - 1
İşarə

“Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının qanuna əsasən, hakimlər korrupsiya hüquqpozması törətdikdə Məhkəmə-Hüquq Şurasına nə barədə məlumat verilir:

Cavablardan birini seçin:

A. hakimin müvafiq məsuliyyətə cəlb edilməsi məsələsi

B. intizam tənbehinin tətbiqi məsələsi

C. inzibati tənbehin tətbiqi məsələsi

D. hakimin kənarlaşdırılması məsələsi

Sual 42
Cavablandırılmayıb
0 - 1
İşarə

“Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa əsasən Milli Məclis tərəfindən qəbul edilən hüquqi aktlara aid ***deyil***:

1. qanun
2. sərəncam
3. qərar
4. fərman

Cavablardan birini seçin:

A. 1, 3

B. 1, 4

C. 2, 4

D. 2, 3

Sual 43
Cavablandırılmayıb
0 - 1
İşarə

“Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən inzibati ərazi vahidlərinin adları dövlət dili ilə yanaşı xarici dillərdə də yazıldığı hallarda inzibati ərazi vahidinin adı hansı qaydada yazılır?

Cavablardan birini seçin:

A. əvvəlcə dövlət dilində və ondan sonra xarici dildə verilməlidir

B. əvvəlcə xarici dildə və ondan sonra dövlət dilində verilməlidir

C. dövlət dilində şaquli şəkildə xarici dildə isə üfüqi şəkildə verilməlidir

D. həm xarici dildə, həm də dövlət dilində şaquli şəkildə eyni sırada verilməlidir

Sual 44
Cavablandırılmayıb
0 - 1
İşarə

Azərbaycan Respublikasının “İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” AR-nın Konstitusiya qanununa əsasən Azərbaycan Respublikasının insan hüquqları üzrə Müvəkkili (ombudsman) hansı Konvensiyanın Fakültativ Protokolunda nəzərdə tutulmuş milli preventiv mexanizmin funksiyalarını həyata keçirir?

Cavablardan birini seçin:

A. “Əsas insan hüquq və azadlıqları haqqında” Konvensiya

B. “İnsan hüquq və azadlıqlarının müdafiəsi haqqında” Konvensiya

C. “Mülki və siyasi hüquqlar haqqında” Beynəlxaq Pakt

D. “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə” Konvensiya

Download: http://Yusif.Az

Sual 45
Cavablandırılmayıb
0 - 1
İşarə

"Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununa əsasən elektron sənədə dair tələblərlə bağlı doğrudur:
1. elektron sənəd texniki və proqram vasitələrinin köməyi ilə yaradılmalı, saxlanılmalı, emal edilməli, ötürülməli və qəbul edilməlidir;
2. elektron sənəd identikləşdirməyə imkan verən rekvizitlərə malik olmalıdır
3. elektron sənəd müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş quruluşa malik olmalıdır
4. elektron sənəd texniki və proqram vasitələrinin köməyi ilə əyani qavranılan (vizual) şəkildə təqdim olunmalıdır
5. elektron sənədin identikləşdirilməsi, həqiqiliyinin müəyyənləşdirilməsi üçün zəruri olan rekvizitlərin siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Cavablardan birini seçin:

- A. 2, 4, 5
- B. 2, 3, 4
- C. 1, 2, 4
- D. 1, 3, 5

Sual 46
Cavablandırılmayıb
0 - 1
İşarə

"Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"a əsasən arayış və məlumat vərəqəsinə dair verilənlərdən hansılar düzgündür?
1. Arayışın və məlumat vərəqəsinin mətni iki hissədən ibarət olmalıdır.
2. Arayışın və məlumat vərəqəsinin mətni üç hissədən ibarət olmalıdır.
3. Arayışın və məlumat vərəqəsinin birinci hissəsində sənədin hazırlanması üçün əsas götürülən faktlar, ikinci hissəsində nəticələr, üçüncü hissəsində təkliflər yazılır.
4. Arayış və məlumat vərəqəsində verilən məlumatın aid olduğu tarix və dövr başlığa daxil edilmir.
5. Arayışın və məlumat vərəqəsinin birinci hissəsində sənədin hazırlanması üçün əsas götürülən faktlar, ikinci hissəsində nəticələr və təkliflər yazılır.
6. Arayışlar və məlumat vərəqələri təşkilatın və ya struktur bölməsinin rəhbəri tərəfindən imzalanır.
7. Arayışlar və məlumat vərəqələri onu hazırlamış şəxs tərəfindən imzalanır.

Cavablardan birini seçin:

- A. 1, 4, 6
- B. 1, 5, 6
- C. 2, 3, 7
- D. 2, 3, 6

Sual 47
Cavablandırılmayıb
0 - 1
İşarə

"Azərbaycan Respublikasının Dövlət himni haqqında Əsasnamə"nin dəqiq yerinə yetirilməsinə nəzarət etmək həvalə olunmuşdur:

Cavablardan birini seçin:

- A. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə, Azərbaycan Respublikasının Milli Məclisinə və Dövlət Təhlükəsizlik Xitmətinin əməkdaşlarına
- B. Azərbaycan Respublikasının Milli Məclisinə, Azərbaycan Respublikasının Konstitusiya məhkəməsinə və icra hakimiyyəti orqanlarının nümayəndələrinə
- C. dövlət orqanlarının, müəssisələrin, idarələrin, təşkilatların, siyasi partiyaların, ictimai birliklərin, həmkarlar ittifaqlarının və digər ictimai qurumların rəhbərlərinə
- D. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə

Download: http://Yusif.Az

Sual 48
Cavablandırılmayıb
0 - 2
İşarə

Azərbaycan Respublikasının Konstitusiyasına görə iqtisadi inkişaf və dövlətlə bağlı müddəalardan düzgün olan(lar)ı seçin:

Cavablardan birini və ya bir neçəsini seçin:

- 1. Azərbaycan dövləti azad sahibkarlığa təminat verir;
- 2. Azərbaycan dövləti bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaradır;
- 3. Hər kəs qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər;
- 4. Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafı xüsusi mülkiyyət növünə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir;
- 5. Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır;
- 6. Azərbaycan dövləti iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir.

Sual 49
Cavablandırılmayıb
0 - 2
İşarə

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Milli Məclisin sədri növbədənkənar sessiyaları çağırır:

Cavablardan birini və ya bir neçəsini seçin:

- 1. Azərbaycan Respublikası Ali Məhkəməsinin tələbi əsasında
- 2. Milli Məclisin 40 deputatının tələbi əsasında
- 3. Milli Məclisin 42 deputatının tələbi əsasında
- 4. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin tələbi əsasında
